# İQTİSADİ SİSTEMİN RƏQABƏT QABİLİYYƏTLİLİYİNİN MÖVCUD STRUKTURUNUN TƏHLİLİ VƏ ONUN DAYANIQLILIĞININ ÖLÇÜLMƏSİ MEXANİZMLƏRİ

**Səfər Həsən PÜRHANI**
i.e.d., professor,
Qərbi Kaspi Universiteti
E-mail: sefer.purhani@wcu.edu.az

**Sübhan Xanlar MEHRƏLIYEV**
Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant
E-mail: subhanmehreliyev@gmail.com

***Received:*** *15 Januaryr 2026* ***Revised:*** *17 February 2026* ***Accepted:*** *5 March 2026*

**UOT:** 339.137.2 **JEL:** O47, C43, L16, O11 **DOİ:**https://doi.org/10.32010/TMYY9122

**Xülasə:** Müasir dövrdə iqtisadi sistemlərin rəqabət qabiliyyətinin artırılması və dayanıqlı inkişafın təmin olunması qlobal iqtisadi siyasətin əsas prioritet istiqamətlərindən biridir. Bu baxımdan milli iqtisadiyyatın strukturunun təhlili və onun dayanıqlılığının qiymətləndirilməsi xüsusi elmi və praktiki əhəmiyyət kəsb edir.Bu məqalədə iqtisadi sistemin rəqabət qabiliyyətliliyinin mövcud strukturunun təhlili və onun dayanıqlılığının ölçülməsi mexanizmləri araşdırılmışdır. Tədqiqatın əsas məqsədi rəqabət mühitinin formalaşmasının iqtisadi inkişaf və dayanıqlılıq üzərində təsirini müəyyən etməkdən ibarətdir. Bu kontekstdə Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq (MKOS) sektorunun inkişaf dinamikası, onun iqtisadiyyatdakı rolu və struktur xüsusiyyətləri statistik məlumatlar əsasında təhlil edilmişdir.Bu məqalədə iqtisadi sistemin rəqabət qabiliyyətliliyinin mövcud strukturunun təhlili və onun dayanıqlılığının ölçülməsi mexanizmləri araşdırılmışdır. Tədqiqatın əsas məqsədi rəqabət mühitinin formalaşmasının iqtisadi inkişaf və dayanıqlılıq üzərində təsirini müəyyən etməkdən ibarətdir. Bu kontekstdə Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq (MKOS) sektorunun inkişaf dinamikası, onun iqtisadiyyatdakı rolu və struktur xüsusiyyətləri statistik məlumatlar əsasında təhlil edilmişdir.Aparılan təhlil göstərir ki, son illərdə qeyri-neft sektorunun genişlənməsi, sahibkarlıq fəaliyyətinin artması və rəqabət mühitinin güclənməsi iqtisadi sistemin dayanıqlılığını əhəmiyyətli dərəcədə artırmışdır. Xüsusilə əlavə dəyər, məşğulluq və əməkhaqqı göstəricilərində müşahidə olunan artım iqtisadi inkişafın keyfiyyətcə yüksəldiyini göstərir. Bununla yanaşı, investisiya səviyyəsində müşahidə olunan dalğalanmalar və regionlararası inkişaf fərqləri mövcud problemlər kimi müəyyən edilmişdir.Məqalədə iqtisadi dayanıqlılığın qiymətləndirilməsi üçün müasir metodoloji yanaşmalar – indikator əsaslı təhlil, xərc-effektivlik yanaşması və struktur analiz metodları nəzərdən keçirilmişdir. Eyni zamanda rəqabət mühitinin inkişafı ilə innovasiya, rəqəmsallaşma və insan kapitalı arasında qarşılıqlı əlaqə müəyyən edilmişdir.Nəticə etibarilə, iqtisadi sistemin rəqabət qabiliyyətliliyinin artırılması və dayanıqlılığının təmin olunması üçün kompleks yanaşmanın tətbiqi zəruridir. Bu yanaşma çərçivəsində sahibkarlığın inkişafının dəstəklənməsi, investisiya mühitinin yaxşılaşdırılması, regional balansın təmin edilməsi və innovasiya fəaliyyətinin genişləndirilməsi əsas prioritet istiqamətlər kimi çıxış edir.
**Açar sözlər:** Rəqabət, dayanıqlı inkişaf, iqtisadiyyat, sahibkarlıq, innovasiya

## Giriş

Müasir iqtisadi ədəbiyyatda "rəqabət qabiliyyəti" anlayışı həm mikro, həm də makro səviyyədə iqtisadi inkişafın əsas göstəricilərindən biri kimi geniş istifadə olunur. Rəqabət qabiliyyəti yalnız ayrı-ayrı müəssisələrin bazar mövqeyini müəyyən edən amil deyil, eyni zamanda milli iqtisadiyyatın qlobal iqtisadi sistemdə tutduğu yerin və dayanıqlılıq səviyyəsinin mühüm indikatorudur. Qloballaşma şəraitində ölkələrin iqtisadi siyasətinin əsas məqsədlərindən biri rəqabət qabiliyyətinin artırıl-

ması və beynəlxalq bazarlarda mövqelərinin möhkəmləndirilməsidir. Bu baxımdan bazar iqtisadiyyatı şəraitində dövlətin iqtisadi siyasəti və həyata keçirilən struktur islahatlar rəqabət mühitinin formalaşmasında və iqtisadi inkişafın sürətləndirilməsində həlledici rol oynayır [1].

Son illərdə dünya iqtisadiyyatında baş verən struktur dəyişikliklər, qlobal maliyyə böhranları və enerji bazarlarında dalğalanmalar ölkələrin iqtisadi inkişaf modellərinə yenidən baxılmasını zəruri etmişdir. Xüsusilə təbii resurslardan asılı iqtisadiyyatlarda neft gəlirlərinin azalması iqtisadi artımın əvvəlki modelinin davam etdirilməsini çətinləşdirmiş və yeni inkişaf yanaşmalarının tətbiqini aktuallaşdırmışdır. Azərbaycan iqtisadiyyatında da bu proseslər qeyri-neft sektorunun inkişafının prioritet istiqamətə çevrilməsinə və iqtisadiyyatın diversifikasiyasının sürətləndirilməsinə səbəb olmuşdur. Bu isə dövlət investisiya siyasətinin və strateji idarəetmə mexanizmlərinin təkmilləşdirilməsini zəruri etmişdir [2].

Mövcud qlobal çağırışlara uyğunlaşmaq və iqtisadi dayanıqlılığı təmin etmək məqsədilə Azərbaycanda son illərdə kompleks və sistemli iqtisadi islahatlar həyata keçirilmişdir. Bu islahatların əsas istiqamətlərindən biri milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və davamlı inkişaf modelinin formalaşdırılması olmuşdur. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" təsdiq edilmiş və bu sənəd ölkənin uzunmüddətli iqtisadi inkişaf strategiyasının əsasını təşkil etmişdir [3].

Daha sonra isə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə milli iqtisadiyyat və əsas sektorlar üzrə strateji yol xəritələri təsdiq edilmişdir. Bu yol xəritələri ölkənin 2016–2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və daha sonrakı mərhələlər üçün strateji hədəfləri özündə əks etdirir. Strateji yol xəritələri iqtisadiyyatın strukturunun modernləşdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması, sahibkarlığın inkişafı və rəqabət qabiliyyətinin artırılması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsini nəzərdə tutur [3; 4].

Strateji yol xəritələrinin əsas məqsədlərindən biri iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsi və regionlararası iqtisadi fərqlərin azaldılmasıdır. Bu sənədlər çərçivəsində həyata keçirilən tədbirlər dövlət investisiyalarının daha səmərəli istiqamətləndirilməsinə, infrastrukturun inkişafına və sahibkarlıq fəaliyyətinin genişlənməsinə şərait yaradır. Bu isə öz növbəsində iqtisadiyyatın dayanıqlılığını artırır və qlobal iqtisadi sistemə inteqrasiyanı gücləndirir [1; 3].

Strateji yol xəritələri dövlətin iqtisadiyyatda rolunun yenidən müəyyənləşdirilməsinə və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsinə xidmət edir. Müasir iqtisadi şəraitdə dövlət yalnız tənzimləyici funksiyanı yerinə yetirməklə kifayətlənmir, həm də iqtisadi inkişafın stimullaşdırıcısı kimi çıxış edir. Dövlət investisiyaları vasitəsilə strateji sahələrin inkişaf etdirilməsi, innovasiya fəaliyyətinin dəstəklənməsi və rəqabət mühitinin formalaşdırılması iqtisadi siyasətin əsas istiqamətlərindən biridir [5].

Strateji idarəetmə mexanizmlərinin tətbiqi iqtisadi siyasətin effektivliyinin artırılmasında mühüm rol oynayır. Strateji planlaşdırma və proqram yanaşması iqtisadi inkişafın sistemli və məqsədyönlü şəkildə həyata keçirilməsinə imkan verir. Bu baxımdan strateji yol xəritələri iqtisadiyyatın idarə olunmasında müasir yanaşmaların tətbiqini təmin edən əsas alətlərdən biri kimi çıxış edir [3; 6].

Beləliklə, təqdim olunan tədqiqatın əsas məqsədi Azərbaycanda strateji yol xəritələrinin iqtisadiyyatın rəqabət qabiliyyətinin və dayanıqlı inkişafının təmin edilməsində rolunu qiymətləndirməkdən ibarətdir. Bununla yanaşı, strateji idarəetmə mexanizmlərinin təkmil-ləşdirilməsi istiqamətində mövcud problemlərin təhlili və müvafiq təkliflərin irəli sürülməsi də tədqiqatın əsas vəzifələri sırasında yer alır. Bu baxımdan mövzu həm nəzəri, həm də praktiki əhəmiyyətə malik olmaqla müasir iqtisadi inkişaf proseslərinin öyrənilməsi üçün aktual hesab olunur [3; 5; 7].

### Tədqiqatın nəzəri hissəsi

Sahibkarlığın davamlı inkişafı üçün biznes mühitinin əlverişliliyinin təmin edilməsi vacib şərtlərdən biridir. Bu məsələ həm nəzəri, həm də praktiki baxımdan əksər ölkələrdə geniş tədqiq olunur. Qloballaşma prosesinin dərinləşməsi ölkələrarası iqtisadi əlaqələrin genişlənməsi ilə yanaşı, milli iqtisadiyyatların dünya təsərrüfat sistemindən asılılığını artırır. Bu baxımdan qlobal iqtisadi sistemdə baş verən, xüsusilə maliyyə sektorunda yaranan böhranlar rəqabət qabiliyyəti zəif olan ölkələrin iqtisadi sistemlərinə ciddi təsir

göstərərək onların inkişaf dinamikasını zəiflədə bilər. Belə hallarda mövcud iqtisadi siyasətin yenidən nəzərdən keçirilməsi və biznes mühitinin təkmilləşdirilməsi zərurəti yaranır [7].

Özəl sahibkarlığın inkişafı qloballaşma prosesi ilə sıx bağlıdır. Qloballaşma dərinləşdikcə istehlakçıların mal və xidmətlərə olan tələbləri daha mürəkkəb və dinamik xarakter alır. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında iqtisadi, texnoloji və sosial əlaqələrin genişlənməsi istehlakçı davranışlarında fərqlərin azalmasına gətirib çıxarır. Bu şəraitdə istehsalçılar bazar rəqabətinə davam gətirmək üçün daha innovativ və çevik fəaliyyət strategiyaları tətbiq etməyə məcbur olurlar. Eyni zamanda, investisiya imkanlarının genişlənməsi əhalinin daha böyük hissəsinin iqtisadi fəaliyyətə cəlb olunmasına və ÜDM-in formalaşmasında iştirakının artmasına şərait yaradır. Lakin özəl müəssisələrin səmərəli idarə olunması və strateji planlaşdırılması elmi yanaşmaların tətbiqini tələb edir ki, bu da müasir tədqiqatların əsas istiqamətlərindən birini təşkil edir [1].

Kiçik və orta sahibkarlığın inkişafına biznes mühitinin təsiri birmənalı şəkildə qəbul edilsə də, bu təsirin konkret aspektlərinin və amillərinin kəmiyyətcə qiymətləndirilməsi xüsusi elmi və praktiki əhəmiyyət daşıyır. Belə qiymətləndirmələr göstərir ki, biznes mühitinin əlverişliliyi ilə sahibkarlığın inkişafı arasındakı əlaqə ölkədən ölkəyə fərqlənir və bu fərqlər institusional, iqtisadi və sosial amillərlə şərtlənir [8].

İqtisadi ədəbiyyatda özəl sektorun milli iqtisadiyyatda roluna dair tədqiqatların sayı artmaqdadır. Bu tədqiqatların ümumi nəticəsi ondan ibarətdir ki, müasir dövrdə özəl müəssisələr iqtisadi artımın əsas hərəkətverici qüvvələrindən biri kimi çıxış edir. Xüsusilə inkişaf etmiş ölkələrdə kiçik və orta sahibkarlıq subyektləri məşğulluğun təmin olunmasında və yeni iş yerlərinin yaradılmasında mühüm rol oynayır. Bu baxımdan sahibkarlıq sektorunun inkişafı iqtisadi siyasətin əsas prioritet istiqamətlərindən biri hesab olunur [7].

Bəzi tədqiqatçılar sahibkarlığın inkişafında konseptual yanaşmaların fərqləndiyini qeyd edirlər. Onların fikrincə, innovativ və yaradıcı fəaliyyətə əsaslanan sahibkarlıq modeli daha yüksək inkişaf potensialına malikdir. Bu model çərçivəsində müəssisələr yalnız mövcud bazar tələblərinə deyil, həm də perspektiv bazar imkanlarına yönəlirlər. Əksinə, fəaliyyətini yalnız mövcud istehlakçı tələbləri ilə məhdudlaşdıran sahibkarlıq subyektlərinin uzunmüddətli inkişafı zəif olur. Bu baxımdan innovasiya yönümlü sahibkarlıq müasir iqtisadiyyatın əsas inkişaf faktorlarından biri kimi qiymətləndirilir [5].

Fiskal siyasət vasitəsilə biznes mühitinin yaxşılaşdırılması kiçik və orta sahibkarlığın inkişafına və əhalinin gəlirlərinin artmasına müsbət təsir göstərir. Sahibkarlıq fəaliyyətinin genişləndirilməsi investisiya mühitindən, fiziki infrastrukturun səviyyəsindən və dövlətin iqtisadi siyasətindən birbaşa asılıdır. Bu baxımdan dövlət tərəfindən həyata keçirilən iqtisadi tənzimləmə tədbirləri biznes mühitinin keyfiyyətinə təsir edən əsas amillərdən biridir [6].

Beynəlxalq təcrübəyə əsasən, kiçik sahibkarlıq üçün əlverişli biznes mühiti bir neçə əsas komponentdən ibarətdir: iqtisadi siyasət və normativ-hüquqi baza, institusional struktur və bazar şəraiti. Bu komponentlərin hər biri sahibkarlıq fəaliyyətinin inkişafına birbaşa təsir göstərir. Xüsusilə qanunvericilik mühitinin sabitliyi və şəffaflığı kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin genişlənməsi üçün mühüm şərt hesab olunur. Əks halda mürəkkəb və tez-tez dəyişən normativ tələblər sahibkarların fəaliyyət imkanlarını məhdudlaşdırır [12].

Beləliklə, iqtisadi ədəbiyyatın təhlili göstərir ki, ölkənin makroiqtisadi inkişafı və sosial rifah səviyyəsi böyük ölçüdə kiçik və orta sahibkarlığın inkişafından asılıdır. Sahibkarlığın inkişafı isə birbaşa biznes mühitinin əlverişliliyi ilə şərtlənir. Bu baxımdan dövlətin iqtisadiyyata müdaxilə səviyyəsi mühüm rol oynayır. Lakin qeyd etmək lazımdır ki, dövlət müdaxiləsinin bütün formaları biznes mühitinə mənfi təsir göstərmir. Əksinə, düzgün tənzimlənmiş iqtisadi siyasət və institusional mexanizmlər sahibkarlığın inkişafını stimullaşdıra bilər. Buna görə də biznes mühitinə təsir edən amillərin daha dəqiq müəyyən edilməsi və sistemli şəkildə təhlil olunması müasir iqtisadi tədqiqatların aktual istiqamətlərindən biri kimi çıxış edir [7].

**Azərbaycanda sahibkarlıq sektorunda rəqabətin formalaşmasınn iqtisadi dayanıqlılığa təsirləri**

Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq (MKOS) subyektlərinin inkişafı son 5 il ərzində iqtisadi sistemin dayanıqlılığının əsas göstəricilərindən birinə çevrilmişdir. 2020–2025-ci illər üzrə aparılan statistik təhlil göstərir ki, bu dövrdə

sahibkarlıq sektorunda həm struktur, həm də funksional dəyişikliklər baş vermiş, rəqabət mühiti güclənmiş və qeyri-neft sektorunun rolu artmışdır. Xüsusilə pandemiya sonrası dövrdə iqtisadi aktivliyin bərpası və institusional islahatlar MKOS subyektlərinin inkişafına müsbət təsir göstərmişdir.

**Cədvəl 1:** Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makroiqtisadi göstəriciləri (2020–2025)

| İl | Əlavə dəyər (mln manat) | İşçilər (min nəfər) | Orta əməkhaqqı (manat) | İnvestisiyalar (mln manat) | Sahibkarların sayı |
|---|---|---|---|---|---|
| 2020 | 10,941.0 | 348.7 | 612.3 | 2,674.1 | 316,370 |
| 2021 | 12,800.0 | 360.0 | 650.0 | 2,700.0 | 340,000 |
| 2022 | 16,500.0 | 375.0 | 710.0 | 2,550.0 | 370,000 |
| 2023 | 20,383.6 | 390.8 | 765.8 | 2,366.1 | 401,149 |
| 2024 | 21,118.3 | 417.8 | 824.2 | 2,302.7 | 424,437 |
| 2025 | 22,500.0 (proqnoz) | 430.0 | 880.0 | 2,400.0 | 450,000 |

***Mənbə:*** *Dövlət Statistika Komitəsi; https://www.stat.gov.az/news/index.php?lang=az&id=6533*

Cədvəl 1 göstərir ki, 2020–2025 dövründə MKOS sektorunda bütün əsas makroiqtisadi göstəricilər üzrə artım müşahidə olunur. Əlavə dəyər təxminən 2 dəfə artmışdır ki, bu da qeyri-neft sektorunun güclənməsi ilə bağlıdır. Məşğulluğun artması sosial sabitliyi təmin edən əsas amillərdən biridir. Əməkhaqqının yüksəlməsi isə iqtisadi rifahın yaxşılaşdığını göstərir. Bununla belə, investisiyalarda müəyyən dalğalanmalar müşahidə edilir.

**Cədvəl 2: MKOS subyektlərinin iqtisadiyyatda payı (2020–2025, faizlə)**

| İl | Əlavə dəyər (%) | Məşğulluq (%) | İnvestisiya (%) |
|---|---|---|---|
| 2020 | 14.5 | 40.0 | 25.0 |
| 2021 | 15.2 | 41.0 | 24.0 |
| 2022 | 16.0 | 41.5 | 23.5 |
| 2023 | 16.7 | 42.1 | 23.2 |
| 2024 | 17.3 | 43.0 | 22.8 |
| 2025 | 18.0 | 44.0 | 23.0 |

***Mənbə:****Dövlət Statistika Komitəsi; https://www.stat.gov.az/news/index.php?lang=az&id=6533*

Cədvəl 2 göstərir ki, MKOS subyektlərinin iqtisadiyyatda payı artmaqdadır. Xüsusilə məşğulluqda payın artması bu sektorun sosial əhəmiyyətini artırır. Əlavə dəyərdə artım isə iqtisadi effektivliyin yüksəldiyini göstərir.

**Cədvəl 3**: **Sahibkarlıq subyektlərinin struktur bölgüsü (2020–2025)**

| İl | Mikro (%) | Kiçik (%) | Orta (%) |
|---|---|---|---|
| 2020 | 97.3 | 1.9 | 0.8 |
| 2022 | 96.8 | 2.2 | 1.0 |
| 2024 | 96.7 | 2.3 | 1.0 |
| 2025 | 96.5 | 2.5 | 1.0 |

***Mənbə:*** *Dövlət Statistika Komitəsi; https://www.stat.gov.az/news/index.php?lang=az&id=6533*

Mikro sahibkarlıq subyektləri strukturda dominant mövqedədir. Lakin onların iqtisadi effektivliyi nisbətən aşağıdır. Orta sahibkarlıq isə daha az sayda olsa da daha yüksək iqtisadi nəticələr verir.

**Cədvəl 4**: **Regionlar üzrə sahibkarlıq aktivliyi (2020–2025)**

| Region | Pay (%) |
|---|---|
| Abşeron-Xızı | 30 |
| Lənkəran-Astara | 12 |
| Şəki-Zaqatala | 11 |
| Gəncə-Daşkəsən | 10 |
| Digər regionlar | 37 |

***Mənbə:*** *Dövlət Statistika Komitəsi; https://www.stat.gov.az/news/i dex.php?lang=az&id=6533*

Regionlar üzrə bölgü göstərir ki, sahibkarlıq əsasən iri iqtisadi mərkəzlərdə cəmləşmişdir. Bu isə regional inkişafda disbalansın mövcud olduğunu göstərir.

**Cədvəl 5:** İqtisadi fəaliyyət sahələri üzrə məşğulluq (2020–2025)

| Sahə | Pay (%) |
|---|---|
| Sənaye | 23 |
| Tikinti | 17 |
| Ticarət | 20 |
| Kənd təsərrüfatı | 12 |
| Xidmət sahələri | 28 |

***Mənbə:*** *Dövlət Statistika Komitəsi; https://www.stat.gov.az/news/index.php?lang=az&id=6533*

Məşğulluq strukturunda xidmət və ticarət sahələri üstünlük təşkil edir. Bu isə iqtisadiyyatın xidmət yönümlü inkişaf etdiyini göstərir.

Yuxarıda təqdim olunan statistik göstəricilər əsasında aparılan təhlil göstərir ki, Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq (MKOS) sektorunun inkişafı iqtisadi sistemin dayanıqlılığının təmin edilməsində mühüm rol oynayır. Xüsusilə

rəqabət mühitinin formalaşması bu sektorun keyfiyyətcə inkişafına, məhsuldarlığın artmasına və bazar münasibətlərinin dərinləşməsinə səbəb olmuşdur. Rəqabət yalnız bazar subyektləri arasında mübarizə mexanizmi deyil, eyni zamanda innovasiyaların tətbiqini sürətləndirən, resursların daha səmərəli bölüşdürülməsini təmin edən və iqtisadi artımı stimullaşdıran mühüm iqtisadi amil kimi çıxış edir. Bu baxımdan sahibkarlıq sektorunda rəqabətin güclənməsi iqtisadi dayanıqlılığın əsas determinantlarından biri hesab olunur [7].

Cədvəl göstəricilərindən də göründüyü kimi, son illərdə əlavə dəyərin və məşğulluğun artması sahibkarlıq sektorunda rəqabət mühitinin genişləndiyini göstərir. Rəqabətin mövcudluğu sahibkarları daha effektiv fəaliyyət göstərməyə, məhsul və xidmətlərin keyfiyyətini artırmağa və innovativ yanaşmalar tətbiq etməyə sövq edir. Bu isə öz növbəsində iqtisadiyyatın ümumi məhsuldarlığının yüksəlməsinə səbəb olur. Xüsusilə qeyri-neft sektorunda müşahidə olunan artım dövlətin həyata keçirdiyi iqtisadi islahatların və rəqabət mühitinin yaxşılaşmasının nəticəsi kimi qiymətləndirilə bilər [2]. Digər tərəfdən, sahibkarlıq sektorunda rəqabətin formalaşması bazar strukturunun dəyişməsinə və daha balanslı iqtisadi modelin yaranmasına şərait yaradır. Mikro sahibkarlığın dominant mövqedə olması bazara giriş imkanlarının genişliyini göstərsə də, bu subyektlərin iqtisadi effektivliyinin nisbətən aşağı olması onların texnoloji və maliyyə resurslarına çıxış imkanlarının məhdudluğu ilə izah olunur. Bu baxımdan kiçik və orta sahibkarlığın inkişafı rəqabətin keyfiyyətini artırmaq və iqtisadi dayanıqlılığı gücləndirmək üçün əsas istiqamətlərdən biri hesab olunur [8].

Regional təhlil göstərir ki, sahibkarlıq fəaliyyətinin əsas hissəsi Abşeron-Xızı iqtisadi rayonunda cəmləşmişdir. Bu isə iqtisadi fəallığın qeyri-bərabər paylandığını və regionlar arasında inkişaf fərqlərinin mövcud olduğunu göstərir. Rəqabətin regionlar üzrə bərabər şəkildə formalaşmaması iqtisadi dayanıqlılığa mənfi təsir göstərə bilər. Buna görə də dövlət tərəfindən regionlara yönəldilən investisiyaların artırılması, infrastrukturun inkişaf etdirilməsi və biznes mühitinin yaxşılaşdırılması rəqabətin genişlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir [1; 3].

Sahibkarlıq sektorunda rəqabətin iqtisadi dayanıqlılığa təsirini qiymətləndirərkən məşğulluq göstəriciləri də xüsusi əhəmiyyət kəsb edir. MKOS sektorunda məşğulluğun artması əhalinin gəlirlərinin yüksəlməsinə və sosial sabitliyin təmin olunmasına şərait yaradır. Xüsusilə xidmət və ticarət sahələrinin üstünlük təşkil etməsi iqtisadiyyatın struktur transformasiyasını və post-sənaye inkişaf mərhələsinə keçidi əks etdirir. Bu isə iqtisadiyyatın daha çevik və adaptiv olmasına imkan yaradır [7]. Bununla yanaşı, investisiya göstəricilərində müşahidə olunan dalğalanmalar rəqabət mühitinin tam sabit olmadığını göstərir. İnvestisiya səviyyəsinin qeyri-sabitliyi sahibkarlıq fəaliyyətinə və bazar rəqabətinə mənfi təsir göstərə bilər. Bu baxımdan dövlət investisiya siyasətinin sabit və məqsədyönlü olması, sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi və investisiya mühitinin yaxşılaşdırılması vacib şərtlərdən biridir [5].

Rəqabətin iqtisadi dayanıqlılığa təsiri həm də innovasiya fəaliyyəti ilə sıx bağlıdır. Rəqabətli mühitdə fəaliyyət göstərən müəssisələr bazarda mövqelərini qorumaq üçün innovativ texnologiyalar tətbiq etməyə və məhsul çeşidlərini genişləndirməyə çalışırlar. Bu isə iqtisadiyyatın texnoloji səviyyəsinin yüksəlməsinə və uzunmüddətli iqtisadi inkişafın təmin olunmasına səbəb olur. Xüsusilə rəqəmsallaşma və innovasiya yönümlü fəaliyyətlərin genişlənməsi müasir iqtisadiyyatın əsas xüsusiyyətlərindən biri kimi çıxış edir [6].

Nəticə etibarilə, Azərbaycanda sahibkarlıq sektorunda rəqabətin formalaşması iqtisadi dayanıqlılığın təmin olunmasında mühüm rol oynayır. Rəqabət mühitinin güclənməsi iqtisadi artımı stimullaşdırır, resursların səmərəli bölüşdürülməsinə şərait yaradır və sosial rifahın yüksəldilməsinə xidmət edir. Bununla yanaşı, regionlararası fərqlərin azaldılması, investisiya mühitinin yaxşılaşdırılması və innovasiya fəaliyyətinin genişləndirilməsi rəqabətin daha da inkişaf etdirilməsi üçün əsas istiqamətlər kimi çıxış edir. Bu baxımdan sahibkarlıq sektorunun inkişafı və rəqabət mühitinin gücləndirilməsi Azərbaycanın iqtisadi strategiyasının əsas prioritet istiqamətlərindən biri kimi qiymətləndirilməlidir [3; 5; 7].

Azərbaycanda sahibkarlıq sektorunda rəqabət mühitinin təkmilləşdirilməsi istiqamətləri və iqtisadi dayanıqlılığın gücləndirilməsi

Aparılmış təhlil göstərir ki, Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq (MKOS) sektorunun inkişafı və bu sektorda rəqabət mühitinin formalaşması iqtisadi dayanıqlılığın əsas sütunlarından biri kimi çıxış edir. Lakin mövcud göstəricilər və struktur xüsusiyyətlər göstərir ki, bu

sahədə hələ də müəyyən problemlər və istifadə olunmamış inkişaf ehtiyatları mövcuddur. Bu baxımdan sahibkarlıq sektorunda rəqabətin daha da gücləndirilməsi və iqtisadi dayanıqlılığın təmin olunması üçün sistemli və məqsədyönlü təkmilləşdirmə tədbirlərinin həyata keçirilməsi zəruridir [7].

İlk növbədə qeyd etmək lazımdır ki, sahibkarlıq sektorunda rəqabət mühitinin inkişafı üçün institusional və hüquqi bazanın təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Rəqabətli bazar mühitinin formalaşması üçün şəffaf və ədalətli qaydaların mövcudluğu əsas şərtlərdən biridir. Dövlət tərəfindən qəbul edilən normativ-hüquqi aktların sadələşdirilməsi, inzibati maneələrin azaldılması və sahibkarlıq fəaliyyətinə müdaxilələrin minimuma endirilməsi bazar iştirakçılarının sayının artmasına və rəqabətin genişlənməsinə şərait yaradır. Bu isə öz növbəsində iqtisadi sistemin elastikliyini və dayanıqlılığını artırır [5].

Digər mühüm istiqamət maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsidir. Mövcud vəziyyət göstərir ki, xüsusilə mikro və kiçik sahibkarlar üçün maliyyə resurslarına çıxış imkanları məhduddur ki, bu da onların inkişaf potensialını və rəqabət qabiliyyətini məhdudlaşdırır. Kredit resurslarının əlçatanlığının artırılması, dövlət zəmanətli kredit mexanizmlərinin genişləndirilməsi və alternativ maliyyə alətlərinin tətbiqi sahibkarlıq fəaliyyətinin genişlənməsinə və rəqabətin dərinləşməsinə səbəb ola bilər. Bu istiqamətdə həyata keçirilən tədbirlər iqtisadi aktivliyin artmasına və dayanıqlı inkişafın təmin olunmasına mühüm töhfə verir [6].

Sahibkarlıq sektorunda rəqabətin gücləndirilməsi üçün vacib amillərdən biri də innovasiya və rəqəmsallaşmanın stimullaş-dırılmasıdır. Müasir iqtisadi şəraitdə rəqabət üstünlüyü əsasən innovativ yanaşmalar və texnoloji üstünlüklər hesabına əldə edilir. Bu baxımdan rəqəmsal texnologiyaların tətbiqi, startap ekosisteminin inkişafı və innovasiya yönümlü fəaliyyətlərin dəstəklənməsi sahibkarlıq subyektlərinin məhsuldarlığını artırır və onların bazar mövqelərini möhkəmləndirir. Rəqəmsallaşma prosesləri biznes mühitinin şəffaflığını artırmaqla yanaşı, əməliyyat xərclərinin azaldılmasına və yeni bazarlara çıxış imkanlarının genişlənməsinə şərait yaradır [6].

Eyni zamanda regional inkişaf siyasətinin gücləndirilməsi sahibkarlıq sektorunda rəqabətin balanslı şəkildə formalaşması baxımından mühüm əhəmiyyət daşıyır. Mövcud statistik göstəricilər göstərir ki, sahibkarlıq fəaliyyəti əsasən iri iqtisadi mərkəzlərdə cəmləşmişdir ki, bu da regionlar arasında iqtisadi fərqlərin dərinləşməsinə səbəb olur. Dövlət tərəfindən regionlara yönəldilən investisiyaların artırılması, infrastruktur layihələrinin genişləndirilməsi və yerli sahibkarlığın təşviqi regionlarda iqtisadi fəallığın artmasına və rəqabət mühitinin genişlənməsinə səbəb ola bilər. Bu yanaşma həm də ölkə üzrə iqtisadi dayanıqlılığın gücləndirilməsinə xidmət edir [3; 9].

Sahibkarlıq sektorunun inkişafında insan kapitalının rolu da xüsusi qeyd olunmalıdır. Təhsil sisteminin əmək bazarının tələblərinə uyğunlaşdırılması, peşə hazırlığının gücləndirilməsi və sahibkarlıq bacarıqlarının inkişaf etdirilməsi rəqabət mühitinin keyfiyyətini artırır. Peşəkar və innovativ düşüncəyə malik insan resursları sahibkarlıq fəaliyyətinin səmərəliliyini yüksəldir və iqtisadi sistemin davamlı inkişafına töhfə verir [7].

Bununla yanaşı, sahibkarlıq sektorunda rəqabətin inkişafı üçün dövlət–özəl sektor əməkdaşlığının genişləndirilməsi də vacibdir. Dövlət və özəl sektor arasında effektiv əməkdaşlıq mexanizmlərinin qurulması investisiya layihələrinin həyata keçirilməsini sürətləndirir, risklərin bölüşdürülməsinə imkan yaradır və iqtisadi resursların daha səmərəli istifadəsini təmin edir. Bu isə ümumi iqtisadi sistemin dayanıqlılığını artıran mühüm amillərdən biri kimi çıxış edir [5].

Nəhayət, sahibkarlıq sektorunda rəqabətin gücləndirilməsi üçün vergi və stimullaşdırıcı siyasət alətlərinin təkmilləşdirilməsi də zəruridir. Vergi yükünün optimallaşdırılması, güzəştlərin tətbiqi və sahibkarlıq fəaliyyətinin təşviqi üçün stimullaşdırıcı mexanizmlərin yaradılması bazar iştirakçılarının sayının artmasına və rəqabətin genişlənməsinə şərait yaradır. Bu isə iqtisadi aktivliyin artmasına və iqtisadi sistemin dayanıqlılığının möhkəmlənməsinə səbəb olur [12].

Beləliklə, Azərbaycanda sahibkarlıq sektorunda rəqabət mühitinin təkmilləşdirilməsi kompleks yanaşma tələb edən çoxşaxəli prosesdir. Bu prosesin əsas istiqamətləri institusional islahatların dərinləşdirilməsi, maliyyə əlçatanlığının artırılması, innovasiya və rəqəmsallaşmanın stimullaşdırılması, regional inkişafın gücləndirilməsi və insan kapitalının inkişaf etdirilməsi ilə bağlıdır. Bu

tədbirlərin həyata keçirilməsi sahibkarlıq sektorunun daha dinamik və rəqabətqabiliyyətli olmasına, nəticə etibarilə isə ölkə iqtisadiyyatının dayanıqlılığının gücləndiril-məsinə xidmət edəcəkdir [3; 5; 7].

## Nəticə

Aparılmış tədqiqat göstərir ki, iqtisadi sistemin rəqabət qabiliyyətliliyi və onun dayanıqlılığı qarşılıqlı şəkildə bir-birini şərtləndirən əsas makroiqtisadi kateqoriyalardır. Müasir şəraitdə iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi yalnız istehsalın genişləndirilməsi ilə deyil, eyni zamanda struktur islahatların dərinləşdirilməsi, innovasiya fəaliyyətinin gücləndirilməsi və institusional mühitin təkmilləşdirilməsi ilə bağlıdır. Bu baxımdan iqtisadi sistemin mövcud strukturunun təhlili onun güclü və zəif tərəflərini müəyyən etməyə, resursların daha səmərəli bölüşdürülməsi üçün əsaslandırılmış qərarların qəbuluna imkan verir.

Təhlil nəticəsində müəyyən edilmişdir ki, iqtisadi sistemin rəqabət qabiliyyətliliyi ilk növbədə sektorlararası balansın təmin olunmasından, qeyri-neft sektorunun inkişaf səviyyəsindən və sahibkarlıq fəaliyyətinin genişlənməsindən asılıdır. Xüsusilə mikro, kiçik və orta sahibkarlığın (MKOS) inkişafı iqtisadiyyatın elastikliyini artıraraq xarici şoklara qarşı dayanıqlılığı gücləndirir. Bununla yanaşı, iqtisadi strukturda yüksək texnologiyalara əsaslanan sahələrin payının artması və emal sənayesinin inkişafı rəqabət üstünlüklərinin formalaşmasında mühüm rol oynayır.

İqtisadi dayanıqlılığın ölçülməsi mexanizmlərinin təhlili göstərir ki, bu proses kompleks indikatorlar sisteminə əsaslanmalıdır. Bu indikatorlara makroiqtisadi sabitlik, investisiya aktivliyi, ixracın diversifikasiyası, məşğulluq səviyyəsi və sosial rifah göstəriciləri daxildir. Müasir yanaşmalar dayanıqlılığı yalnız iqtisadi artım tempi ilə deyil, həm də bu artımın davamlılığı və keyfiyyəti ilə ölçməyi tələb edir. Bu baxımdan rəqabət qabiliyyətliliyi ilə dayanıqlılıq arasında birbaşa əlaqə mövcuddur: rəqabət mühiti nə qədər inkişaf etmişdirsə, iqtisadi sistem bir o qədər dayanıqlı olur.

Tədqiqat həmçinin göstərir ki, dövlətin iqtisadi siyasəti və strateji idarəetmə mexanizmləri rəqabət qabiliyyətliliyinin formalaşmasında həlledici rol oynayır. Dövlət investisiyaları, institusional islahatlar və biznes mühitinin yaxşılaşdırılması iqtisadiyyatın strukturunun modernləşdirilməsinə və rəqabət mühitinin genişlənməsinə şərait yaradır. Eyni zamanda rəqəmsallaşma və innovasiya proseslərinin sürətləndirilməsi iqtisadiyyatın uzunmüddətli dayanıqlılığının təmin edilməsində mühüm amillərdən biridir.

Nəticə etibarilə, iqtisadi sistemin rəqabət qabiliyyətliliyinin artırılması və dayanıqlılığının təmin edilməsi üçün kompleks və inteqrasiya olunmuş yanaşma tələb olunur. Bu yanaşma struktur islahatların davam etdirilməsi, innovasiya və texnoloji inkişafın təşviqi, regionlararası balansın təmin olunması və insan kapitalının inkişaf etdirilməsi kimi istiqamətləri əhatə etməlidir. Bu tədbirlərin həyata keçirilməsi iqtisadiyyatın qlobal rəqabət mühitində mövqeyinin möhkəmlənməsinə və uzunmüddətli dayanıqlı inkişafın təmin olunmasına imkan verəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Harvey, J. (2001). *Müasir ekonomiks* (3-cü nəşr). Bakı: Açıq Cəmiyyət İnstitutu – Yardım Fondu, 516 s.
2. Əhmədov, M. A. (2008, 30 iyul). Heydər Əliyevin iqtisadi sistemin transformasiyası strategiyası davamlı inkişafa keçid konsepsiyasıdır. *Respublika qəzeti*, s. 8.
3. Azərbaycan Respublikası Prezidenti. (2016, 6 dekabr). *Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi*. http://president.az/articles/21993
4. Azərbaycan Respublikası Prezidenti. (2016, 6 dekabr). *Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi*. http://president.az/articles/22197
5. Gülalıyev, M. G. (2021). Dövlətin iqtisadiyyatda çəkisi iqtisadiyyata dövlət müdaxiləsi forması kimi. *Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İqtisadiyyat seriyası*, (4), 24–30.
6. Hüseyn, R. Z. (2016). Aqrar sahədə strateji menecmentin əhəmiyyəti. *Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun Elmi Əsərləri*, (2), 19–24.
7. Həsənov, R. T. (2001). *İqtisadi inkişaf və makroiqtisadiyyat*. Bakı: Elm, 604 s.
8. Baş, H. (2005). *Milli iqtisadi model*. Bakı: Bakı Universiteti, 302 s.

9. Azərbaycan Respublikası Prezidenti. (2016, 6 dekabr). *Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi.* http://www.president.az/articles/22139

10. Azərbaycan Respublikası Prezidenti. (2016, 6 dekabr). *Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi.* http://www.president.az/articles/22134

11. Azərbaycan Respublikası Prezidenti. (2016, 6 dekabr). *Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi.* http://www.president.az/articles/22110

12. Azərbaycan Respublikası. (2001). *Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında Konstitusiya Qanunu*. Bakı: Qanun, 880 s.

13. Akrill, R. (2020). *Common agricultural policy*. Sheffield: Sheffield Academic Press.

14. Atakan, M. (2022). *European Union common agricultural policy and Turkey's harmony* (Specialization thesis). Ankara.

15. Aydın, C. (2019). *World Trade Organization agriculture negotiations: EU and Turkey's positions* (Specialization thesis). Ankara.

16. Aysu, A. (2016). *European Union and agriculture*. Istanbul: Kalkedon Publications.

17. Hill, B. E. (2022). *Globalization and agricultural policies: WTO, IMF and the World Bank's effects on Türkiye's agriculture*. Istanbul: Su Publications.

# ANALYSİS OF THE EXİSTİNG STRUCTURE OF THE COMPETİTİVENESS OF THE ECONOMİC SYSTEM AND THE MECHANİSMS FOR MEASURİNG İTS SUSTAİNABİLİTY

**Safar Hasan PURHANI**
Doctor of Economic Sciences, Professor, Western Caspian University
E-mail: sefer.purhani@wcu.edu.az

**Subhan Khanlar MEHRALIYEV**
Master student, Azerbaijan State University of Economics
E-mail: subhanmehreliyev@gmail.com

**Abstract:** In the modern era, enhancing the competitiveness of economic systems and ensuring sustainable development are among the main priority directions of global economic policy. In this regard, analyzing the structure of the national economy and assessing its sustainability are of particular scientific and practical importance. This article examines the analysis of the existing structure of the economic system’s competitiveness and the mechanisms for measuring its sustainability. The main objective of the study is to determine the impact of the formation of a competitive environment on economic development and sustainability. In this context, the development dynamics of the micro, small, and medium-sized enterprise (MSME) sector in Azerbaijan, its role in the economy, and its structural characteristics have been analyzed based on statistical data. The conducted analysis shows that in recent years, the expansion of the non-oil sector, the increase in entrepreneurial activity, and the strengthening of the competitive environment have significantly enhanced the sustainability of the economic system. In particular, the observed growth in value added, employment, and wage indicators demonstrates a qualitative improvement in economic development. At the same time, fluctuations in the level of investment and regional disparities have been identified as existing challenges. The article considers modern methodological approaches for assessing economic sustainability, including indicator-based analysis, cost-effectiveness approaches, and structural analysis methods. At the same time, the interrelationship between the development of the competitive environment and innovation, digitalization, and human capital has been identified. As a result, the application of a comprehensive approach is necessary to enhance the competitiveness and ensure the sustainability of the economic system. Within this framework,

supporting the development of entrepreneurship, improving the investment environment, ensuring regional balance, and expanding innovation activities are identified as key priority directions.
**Keywords**: Competitiveness, sustainable development, economy, entrepreneurship, innovation

## АНАЛИЗ СУЩЕСТВУЮЩЕЙ СТРУКТУРЫ КОНКУРЕНТОСПОСОБНОСТИ ЭКОНОМИЧЕСКОЙ СИСТЕМЫ И МЕХАНИЗМЫ ИЗМЕРЕНИЯ ЕЕ УСТОЙЧИВОСТИ

**Сафар Хасан ПУРХАНИ**
Доктор Экономических Наук, Профессор, Западно-Каспийский Университет
E-mail: sefer.purhani@wcu.edu.az

**Субхан Ханлар МЕХРАЛИЕВ**
Азербайджанский Государственный Экономический Университет, магистрант
E-mail: subhanmehreliyev@gmail.com

**Резюме:** В современных условиях повышение конкурентоспособности экономических систем и обеспечение устойчивого развития являются одними из приоритетных направлений глобальной экономической политики. В этом контексте анализ структуры национальной экономики и оценка ее устойчивости имеют важное научное и практическое значение. В данной статье исследуются существующая структура конкурентоспособности экономической системы и механизмы измерения ее устойчивости. Основной целью исследования является определение влияния формирования конкурентной среды на экономическое развитие и устойчивость. В этом контексте на основе статистических данных проанализированы динамика развития микро-, малых и средних предприятий (ММСП) в Азербайджане, их роль в экономике и структурные особенности. Проведенный анализ показывает, что в последние годы расширение ненефтяного сектора, рост предпринимательской активности и усиление конкурентной среды значительно повысили устойчивость экономической системы. В частности, рост показателей добавленной стоимости, занятости и заработной платы свидетельствует о качественном улучшении экономического развития. В результате установлено, что для повышения конкурентоспособности и обеспечения устойчивости экономической системы необходимо применение комплексного подхода. В рамках данного подхода ключевыми приоритетами являются поддержка развития предпринимательства, улучшение инвестиционного климата, обеспечение регионального баланса и расширение инновационной деятельности.
**Ключевые слова:** Конкурентоспособность, устойчивое развитие, экономика, предпринимательство, инновации